İPƏK YOLU, No.2, 2022, səh.40-47

# QARABAĞ İQTİSADİ RAYONUNDA MƏŞĞULLUQ PROBLEMİ VƏ İNSAN RESURSLARINDAN İSTİFADƏ İSTİQAMƏTLƏRİ

**Baba Məmmədov**

Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, Azərbaycan
e-mail: baba.mammadov89@gmail.com

**Xülasə.** Tədqiqatın məqsədi Qarabaq iqtisadi rayonunda məşğulluq problemlərini təhlil etmək, və məşğulluğun yüksəldilməsinin praktiki həll yollarını müəyyən etməkdir.

**Açar sözlər:** iqtisadi rayon, əmək ehtiyatları, əmək bazarı, məşğulluq, işsizlik.

**THE PROBLEM OF EMPLOYMENT IN THE KARABAKH ECONOMIC REGION AND THE USE OF HUMAN RESOURCES**

**Baba Mammadov**
*Azerbaijan State Economic University, Baku, Azerbaijan*

**Abstract.** The purpose of the study is to analyze the employment problems in the Karabakh economic region and identify practical solutions to increase employment.
**Keywords:** economic region, labor resources, labor market, employment, unemployment.

**ПРОБЛЕМА ЗАНЯТОСТИ В КАРАБАХСКОМ ЭКОНОМИЧЕСКОМ РАЙОНЕ И ИСПОЛЬЗОВАНИЕ ЧЕЛОВЕЧЕСКИХ РЕСУРСОВ**

**Баба Мамедов**
*Азербайджанский Государственный Экономический Университет, Баку, Азербайджан*

**Резюме.** Целью исследования является проанализировать проблемы занятости в Карабахском экономическом районе и определить практические решения по увеличению занятости.
**Ключевые слова:** экономический район, трудовые ресурсы, рынок труда, занятость, безработица.

## 1. Giriş

Ölkəmiz üçün həm tarixi, həm də siyasi-iqtisadi, sosial baxımdan mühüm olan, işğaldan azad olunmuş Qarabağ regionunun iqtisadiyyatının inkişafının milli strategiyanın reallaşma istiqaməti kimi araşdırılmasına ehtiyac böyükdür. Bu səbəbdən Qarabağ iqtisadi rayonunun inkişafının milli inkişafa təsiri istiqamətində, əsasən də məşğulluğun təmini və insan resurslarından istifadə üzrə araşdırmaların zəruri olduğunu düşünürük.

Bəllidir ki, iqtisadi islahatlar, siyasi və hərbi böhranlar ayrı-ayrı regionların əmək bazarlarında uzun illər boyu uzanan bir iz buraxır. 44 günlük İkinci Qarabağ Vətən Müharibəsindəki qələbədən sonra Qarabağ bölgəsinə böyük qayıdış və insan kapitalından səmərəli istifadə edilməsi, ərazinin yenidən qurulması və inkişaf etdirilməsi gözlənilir. Ölkə Prezidenti İlham Əliyevin işğaldan azad edilmiş regionların yenidən qurulması, bərpası və nəhayət, sosial-iqtisadi inkişafını sürətləndirmək, bu regionlarla digərlərinin inkişafındakı fərqlərin aradan qaldırılmasının dövlətin prioritet vəzifəsi kimi təsdiqləməsi Qarabağ regionun sosial-iqtisadi inkişafının başlıca istiqamətlərinin müəyyənləşdirilməsini, milli strategiyadan irəli gələn dövlət tədbirlərinin yenidən dəyərləndirilməsini və təkmilləşdirilməsini zəruri edir.

Bunun üçün strateji baxışı müəyyən edən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və inkişafı ilə bğlı Konsepsiya", "Azad edilmiş ərazilərdə sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin səmərəli həlli məqsədilə hazırlanmış Strateji Fəaliyyət Planı" və 59 dövlət orqanı, müəssisə və təşkilatının cəlb edildiyi "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2021-2025-ci illər üzrə bərpası və dayanıqlı inkişafı Dövlət Proqramı" hazırlanmış, Qarabağ Dirçəliş Fondu, "Yaşat" Fondu təsis edilmişdir. Bu tədbirlər fonunda Qarabağ iqtisadi rayonunun dirçəlişi, əhalinin işğaldan azad edilmiş torpaqlara və evlərinə qayığışı istiqamətində də tədbirlərin davam etdirilməsi müşahidə edilir.

Ümumiyyətlə, regionlarda məşğulluq və insan resurslarının istifadəsi probleminin nəzəri hissəsinə diqqət yetirdikdə qeyd etməliyik ki, xarici alimlərdən  Kasey C. Daukins öz "Regional inkişaf nəzəriyyələri: konseptual əsaslar, klasik yanaşmalar və son tədqiqatlar" əsərində regional iqtisadiyyata dair müxtəlif nəzəriyyələrin xüsusiyyətlərini açıqlamış, müxtəlif zaman kəsiyində regionların inkişafına dair nəzəri yanaşmaların fərqlərini göstərmiş, regional əmək bazarında nəticələrin əldə olunmasında ərazının roluna dair fikirlər irəli sürmüşdür [7]. Yerli alimlərimizdən isə prof. T.Quliyev və prof. Ş.Muradov öz əsərlərində bu problemə geniş yer vermişlər [2; 3]. Onların bu istiqamətdə tədqiqatlarının əhəmiyyəti danılmazdır. Lakin son ildə iqtisadi böyümə məsələsini nəzərə alaraq regionların iqtisadiyyatının, əsasən də Qarabağ iqtisadi rayonu üzrə insan resurslarının, onun potensialının vəziyyətinin və məşğulluğunun təmin edilməsinin təhlil edilməsinin zəruriliyi artmışdır.

Qarabağ iqtisadi rayonunda əmək bazarının və insan resurslarından istifadənin vəziyyətinin qiymətləndirmək üçün bir sıra göstəricilərin təhlil edilməsinə ehtiyac var. Bu regionda məşğulluq və işsizliyin səviyyəsi, iqtisadi sahələr üzrə məşğul olanların göstəriciləridir. Aparılan təhlil zamanı statistik materiallardan, hesabat və elmi araşdırmalarda göstərilən məlumatlardan istifadə edilir. Müxtəlif mənbələrdən əldə edilən məlumatların təhlili Qarabağ iqtisadi rayonunda işçi qüvvəsinin vəziyyətini, sahələr üzrə bölgüsünü və Respublikanın əmək bazarındakı vəziyyətlə müqayisədə mövcud problemlərini müəyyən etməyə imkan verdi. Lakin son 1,5 ilin məlumatlaının olmaması və Xənkəndi şəhəri üzrə göstəricilərin olmaması bu təhlili daha geniş aparmağa imkan verməmişdir.

Tədqiqatın nəticələri aşağıdakı əsas alt bölmələrin hər biri üzrə təqdim olunur: məşğulluq səviyyəsinin dinamikası və işsizliyin vəziyyəti, məşğulluğun sahə və sektor strukturu.

## 2. Qarabağ iqtisadi rayonunda məşğulluq və işsizlik səviyyəsi

Aparılan araşdırmalar Qarabağ iqtisadi rayonunda 1990-cı illə müqayisədə 2020-ci ildə əhalinin sayının 1,4 dəfə artmasını və bu tendensiyanın respublika göstəricisi üzrə eyni olduğunu göstərir. Lakin daha dərin araşdırma 1990-cı ildə Qarabağ iqtisadi rayonunun əhalisinin Respublika əhalisinin 9,3% təşkil etdiyi halda, 2021-ci ildə bu göstəricinin azalaraq 8,9% düşməsini göstərir. Beləliklə, 30 illik köçkün həyatı bu iqtisadi rayonun əhalisinin

artımına təsirsiz ötüşməmişdir. Bu proses özünü məşğul əhalinin sayında da göstərmişdir. Təkcə 2010-2020-ci illər üzrə aparılan təhlil Respublika üzrə məşğul əhalinin sayında Qarabağ iqtisadi rayonu üzrə məşğul əhalinin sayının xüsusi çəkisinin azaldığını göstərir. Belə ki, əgər 2010-cu ildə bu göstərici 8,1% olmuşdursa, 2020-ci ildə Respublika üzrə məşğul əhalinin sayı göstəricisində Qarabağ iqtisadi rayonu üzrə məşğul əhalinin sayının xüsusi çəkisi 8,0%-ə enmişdir. Qarabağ iqtisadi rayonu üzrə əmək bazarının təhlili 2015-ci ildə iqtisadi fəali əhalinin tərkibində məşğul əhalinin sayının 95%-dən 2020-ci ildə 92,9%-ə qədər azalmasını göstərir. Həmçinin məşğul əhalinin tərkibində muzdlu işçilərin sayı 2015-ci ildə 18,6%-dən 2020-ci ildə 17,3%-ə düşmüşdür.

Dövlət Statistika Komitəsnin məlumatlarına əsasən Qarabağ iqtisadi rayonu üzrə muzdlu işçiləri sayı Respublikada olan muzdlu işçilərin sayında 2010-cu ildə 4,9%-dən 2020-ci ildə 4% qədər azalmışdır.

Beləliklə, Qarabağ iqtisadi rayonu üzrə əmək bazarında illər üzrə ümumi tendensiyada artım müşahidə edilsə də, Respublika miqyasında iqtisadi rayonun əmək bazarı üzrə təhlil etdiyimiz göstəricilərinin xüsusi çəkisinin azalması baş vermişdir.

**Qrafik 1**. Qarabağ iqtisadi rayonunda əmək bazarının vəziyyəti




| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|
| İqtisadi fəal əhalinin sayı, min nəfər | 399,1 | 406,8 | 411,3 | 415,1 | 418,0 | 422,0 |
| Məşğul əhalinin sayı, min nəfər | 379,2 | 386,3 | 391,4 | 394,9 | 398,2 | 392,0 |
| Muzdlu işçilərin sayı, min nəfər | 70,7 | 70,3 | 68,4 | 68,7 | 69,5 | 67,7 |

Mənbə: https://www.stat.gov.az/source/labour/ (12.03.2022).

İşsizliyin səviyyəsi üzrə təhlil isə bizə Respublika üzrə olan göstəricilərlə Qarabağ iqtisadi rayonu üzrə işsizlik göstəricilərinin demək olar ki, eyni səviyyədə olduğunu, bəzi illərdə cüzi fərqin olduğunu göstərir. Qarabağ iqtisadi rayonuna daxil olan rayonlar arasında bu göstərici ən çox 2020-ci ildə Şuşa (9,2%) və Xocalının (9,1%), ən aşağı göstərici isə Ağcabədi (6,2%) və Bərdənin (6,4%) payına düşüb. Ümumən Qarabağ iqtisadi rayonu üzrə işsizlərin sayı 2,1% artmışdır.

**Qrafik 2.** Qarabağ iqtisadi rayonu üzrə işsizliyin səviyyəsi




Mənbə: https://www.stat.gov.az/source/labour/ (12.03.2022).

Onu da qeyd edək ki, işsizlik göstəricisinin azaldılması üçün bir neçə istiqamətdə tədbirlər həyata keçirilir. Bunlardan biri yeni iş yerlərinin yaradılmasıdır. Ölkə ərazisində 2021-ci il ərzində yaradılmış 12223 yeni müəssisə və təşkilatın 1,2 faizi Qarabağ iqtisadi rayonunda fəaliyyətə başlamışdır. Həmin dövrdə yaradılmış yeni iş yerlərinin 1% Qarabağ iqtisadi rayonlarının payına düşmüşdür [6, s.5]. Lakin aparılan statistik təhlil ümumi tendensiyada 2017-2020-ci illərdə yeni açılmış iş yerlərinin sayında azalmanın olduğunu göstərir. Nəzərə alsaq ki, 2020-ci il COVİD -19 ilə bağlı pandemiya dövrünə təsadüf edir və 2021-2022-ci illərdə Qarabağ iqtisadi rayonunda böyük qayışdışın başlanğıcıdır, məşğul əhalinin sayında isə kəskin dəyişikliyin olmaması problemin həll edilən səviyyədə olduğunu göstərir.

**Qrafik 3**. Qarabağ iqtisadi rayonunda yeni açılmış iş yerlərinin sayı




Mənbə: https://www.stat.gov.az/source/labour/ (12.03.2022).

Qarabağ iqtisadi rayonu üzrə 2010-2019-cu illər üçün aparılan təhlil Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin yerli qurumlarında işsiz statusu verilənlərin sayında fərli tendensiya müşahidə edilir. Belə ki, 2010-cu ildə Qarabağ

iqtisadi rayonuna daxil olan Ağcabədi rayonunda işsiz statusu alanlar ümumi rayonun 4.2% təşkil edirdisə, 2019-cu ildə bu göstərici 1,1% enib. Bu göstərici analoji olaraq Bərdə rayonunda 47,7% və 25%, Füzuli rayonunda 7,5% və 6,9% olub. Digər rayonlarda isə əksinə, artım olmuşdur. Bu göstərici Ağdam rayonunda 28,9%-dən 32,4%-ə, Xocalı rayonunda 1,7%-dən 5,7%-ə, Xocavənd rayonunda 1,1%-dən 5%-ə, Şuşa rayonunda 0,6%-dən 4,4%, Tərtər rayonunda 8,2%-dən 19,4%-ə qalxmışdır. Xənkəndi şəhəri üzrə göstəricilərin olmaması bu təhlili aparmağa imkan verməmişdir. Aparılan təhlilin müsbət nəticəsi odur ki, 2010-cu ilə nisbətən 2019-cu ildə Qarabağ iqtisadi rayonu üzrə işsiz statusu alanların sayı 31,3% azalmışdır.

Ümumilikdə işsizliyin sayının azaldılmasında əsas məsələlərdən biri qazi və şəhidlərin ailə üzvlərinin işlə təmin edilməs üzrə tədbirlərin genişləndirilməsidir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin 12.03.2022-ci il tarixə məlumatlarına görə Qarabağ iqtisadi rayonu üzrə 37 işəgötürən tərəfindən 161 vakant vəzifə elanı verilmişdir. Elə həmin dövr üzrə 24 şəhid ailə üzvü və 50 qazi işlə təmin edilmişdir [9]. Digər tədbir işsizlik müavinətlərinin verilməsi ilə bağlıdır. Aparılan təhlildən aydın olur ki, müavinət alanların ən yüksək göstəricisi 2017-ci ilə (297 nəfər), ən aşağı göstəricisi isə 2020-ci ilə (11 nəfər) təsadüf edir.

## 3. Qarabağ iqtisadi rayonunda məşğulluğun sahə strukturu və onun transformasiyası

Milli strategiyanın əsas məqsədi olan iqtisadi artımın yüksək tempinin saxlanması üçün məşğulluğun və əmək məhsuldarlığının arta biləcəyi həddi təyin etmək lazımdır. Bir tərəfdən iqtisadi böyümənin strukturunun və xarakterinin təyin edilməsi, digər tərəfdən məhsuldar iş yerlərinin yaradılmasının nə dərəcədə effektiv olacağını müəyyən etməyi tələb edir. Bu baxımdan iqtisadi artımın sektorlar üzrə strukturu ilə paralel ayrı-ayrı sektorlar daxilində iş yerlərinin sayının artması və məşğulluqdan əldə olunan gəlir səviyyəsini proqnozlaşdırmaq lazım gəlir. “Odur ki, məşğulluq nöqteyi-nəzərindən iqtisadi inkişafın təhlilinin predmeti iqtisadi artımın iş yerlərinin sayının artmasına və əmək məhsuldarlığının (gəlirinin) artması ehtiyacını nə dərəcədə təmin etməsinin qiymətləndirilməsi olmalıdır. Belə bir qiymətləndirmənin mənalı olması üçün o, sektorlar üzrə aparılmalıdır. Eyni zamanda, iqtisadi inkişafın nə dərəcədə məhsuldar transformasiya ilə bağlı olması və ona yönəldilməsi orta və uzunmüddətli perspektivdə iqtisadi inkişafın davamlılığı üçün birinci dərəcəli əhəmiyyət kəsb edir” [8].

Ümumilikdə məşğulluğa təsir edən amillərdən biri, bəlkə də ən əsası əmək haqqı ilə bağlıdır. Bu göstəricinin təhlili bizə Respublika üzrə orta aylıq nominal əmək haqqının 2005-ci ilə nisbətən 2020-ci ildə 5,7 dəfə artdığını, kənd təsərrüfatı sahəsində 10,4 dəfə, daşınmaz əmlakla bağlı əməliyyatlar sahəsində 10,8 dəfə, istirahət, əyləncə və incəsənət sahəsində 10,3 dəfə, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi sahəsində 11,6 dəfə artım olmuşdur.

Nominal əmək haqqında ən az artım inzibati və yardımşı xidmətlərin göstərilməsində 1 dəfə, tikinti və turistlərin yerləşdirilməsi, ictimai iaşə sahələrində 3,4 dəfə olmşdur.

Qarabaq iqtisadi rayonu üzrə orta aylıq nominal əmək haqqına diqqət yetirdikdə ümumilikdə rayon üztə bu göstərici 2015-ci ilə nisbətən 2020-ci ildə 1,7 dəfə artmışdır.

**Qrafik 4**. Qarabağ iqtisadi rayonu üzrə orta aylıq nominal əməkhaqqı, manat




Mənbə: https://www.stat.gov.az/source/labour/ (12.03.2022).

Aparılan təhlil Qarabağ iqtisadi rayonu üzrə əhalinin daha çox kənd təsərrüfatı, istirahət, əyləncə və incəsənət sahəsində, təhsil və tikinti, ticarət sahələrində məşğul olduğunu göstərir. Ən aşağı məşğulluq mədənçıxarma sənayesi, peşə, elmi və texniki fəaliyyət, daşınmaz əmlakla bağlı əməliyyat, informasiya və rabitə sahələrindədir. Nəzər alsaq ki, son bir ildə bu sahələrdə xeyli irəliləmə ilə bağlı mətbuatda çoxlu sayda məruzə və çıxışlar olsa da, bunu təsdiq edəcək məlumatların hələlik statistikada əks olunmaması təhlili tam aparmağa iman verməmişdir.

**Cədvəl 1.** 2020-ci ildə Qarabağ iqtisadi rayonu üzrə məşğul əhalinin iqtisadi fəaliyyət növləri bölgüsü, %

| | Qarabağ iqtisadi rayonu | Azərbaycan Respublikası |
|---|---|---|
| Cəmi | 8 | 100 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 10,8 | 36,3 |
| Mədənçıxarma sənayesi | 0,5 | 0,8 |
| Emal sənayesi | 4,8 | 5,3 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 3,9 | 0,6 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 2,7 | 0,6 |
| Tikinti | 8,2 | 7,3 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 7,7 | 14,2 |
| Nəqliyyat və anbar təsərrüfatı | 4,4 | 4,2 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 6,2 | 1,3 |
| İnformasiya və rabitə | 2 | 1,3 |

| | | |
|---|---|---|
| Maliyyə və sığorta fəaliyyəti | 2,8 | 0,6 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 1,8 | 1,8 |
| Peşə, elmi və texniki fəaliyyət | 1,9 | 1,5 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 3,6 | 1,8 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 6,1 | 5,7 |
| Təhsil | 8,6 | 7,8 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 6,8 | 3,9 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 9,4 | 1,6 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 7,8 | 3,4 |

Mənbə: https://www.stat.gov.az/source/labour/ (12.03.2022).

Hazırda Qarabağ iqtisadi rayonu üzrə "tikinti bumu" olduğunu və yenidənqurma, bərpa işlərinin çoxalması nəticəsində tikinti sektorunda artımın olması və onunla paralel digər sahələrin də yenidən təşkili və inkişafı gözlənilir. Belə ki, informasiya və rabitə sistemlərinin yenidən qurulması, su, elektrik enerjisi, nəqliyyat və anbar təsərrüfatlarının yenidən qurulması bu iqtisadi rayona yeni işçi qüvvəsinin axınını artırmışdır. Təkcə 2021-ci ildə işğaldan azad edilmiş torpaqlarda bərpa, yenidənqurma işlərinin aparılmasına dövlət büdcəsindən 2,2 milyard manatlıq vəsait yönəldilib. 2021-ci ildə Qarabağ iqtisadi rayonu üzrə sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün KOBİA ya daxil olan müraciətlərin 17 % tikinti sektoru, 23 % sənaye sektoru, 25% ticarət və xidmət sektoru, 17% kənd təsərrüfatı sektoru, 8% turizm sektoru üzrə olub. Daxil olan müraciətlərin 22,6% xarici ölkələrin şirkətləri olmuşdur [4].

Xarici ölkələrdən "Ansaldo Energia" şirkəti (İtaliya), "GOSB" texnoparkı və TÜMKİAD Türk Dərnəyi (Türkiyə),"EximBank"(Macarıstan) və s. şirkətlər bu sahədə fəaliyyətə və əməkdaşlığa başılanılıb [1, 5].

**Nəticə.** Qarabağ iqtisadi rayonu üzrə əmək bazarında illər üzrə ümumi tendensiyada artım müşahidə edilsə də, Qarabağ iqtisadi rayonun 1990-2020-ci illər çərçivəsində əmək bazarı üzrə təhlil etdiyimiz məşğul əhalinin və muzdlu işçilərin sayı üzrə Respublika miqyasında xüsusi çəkisinin azalması baş vermişdir. 30 illik bir dövr ərzində hərbi müdaxilə nəticəsində iş yerlərinin itirilməsi, məcburi miqrasiya əmək qabiliyyətli əhalinin digər rayonlara getməsi ümumrespublika əmək bazarında gərginliyi artırmış, əhalinin doğma torpaqlarından və daimi iş yerlərindən kənarda qalmasına, işsizliyin, müvəqqəti və daimi işsizliyin artmasına gətirib çıxarmışdır.Hazırda qarşıda duran əsas vəzifə Qarabağ iqtisadi rayonunun əhalisinin sayında artımla paralel iş yerlərinin yaradılması və əhalinin bu rayonda məşğulluq göstəricilərinin artırılmasıdır. Belə ki, əhalinin qocalmasının, əmək qabiliyyətli yaşın əmək bazarından çıxarılmasının nəticələrini getdikcə daha aydın hiss etməmək üçün həm əhalinin artımı, həm də iş yerlərinin artımı istiqamətdə tədbirlərin genişləndirilməsinə ehtiyac duyulur. Bunun üçün aşağıdakıların nəzərə alınmasını təklif edirik:

1) Hazırda bir çox işə düzəlmə prosesləri internet üzərindən idarə edilir. Zənnimizcə dövlət proqramları çərçivəsində müxtəlif sahələrdə ehtiyac yaranacaq iş yerləri üzrə 3-6 ay

öncədən proqnozların verilməsi və işsizlərlə iş yerlərinin əlaqələndirilməsində mexanizm olaraq "süni intelekt"dən istifadə işsizlik probleminin aradan qaldırılmasına, o cümlədən Qarabağ iqtisadi rayonunda işlə təmin edilmənin artırılması üçün məlumatlılığın və şəffaflığın artırılmasına xidmət etmiş olar.

2) İşğaldan azad edilmiş rayonların potensial kadr bazasının yaradılması, bu rayonlarda yenidənqurma və bərpa işlərində yerli əhalinin istifadəsi imkanlarının artırılmasına, rayonun əmək ehtiyatlarının isə daimi iş yerləri ilə təmin edilməsinə xidmət edə bilər.

3) Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Dövlət Məşğulluq Agentliyi, DOST Mərkəzləri, Təhsil Nazirliyi, Dövlət İmtahan Mərkəzi və təhsil müəssisələrinin birgə əməkdaşlığının nəticəsi olacaq elektron xidmət platformasının yaradılmasına ehtiyac var. Bu platforma yaşayış qeydiyyatı və təhsil ixtisası üzrə Qarabağ iqtisadi rayonu üzrə "işə təyin edilmə-göndəriş sistemi" formalaşdırılmasına imkan verə bilər. Nəticədə bu, əhalinin bütün yaş qruplarının həm doğma yurdlarına böyük qayıdışına, həm də məşğulluğunun təmin edilməsinə xidmət etmiş olar.

4) Gənc və orta yaşlı işçi qüvvəsi üçün dəstək mexanizmi kimi Qarabaq iqtisadi rayonunda kovorkinq mərkəzlərinin formalaşdırılması hesabına özünü məşğulluq proqramalrının və sahibkarlıq fəaliyyətinin təşkilinə dəstək olmaq olar.

## Ədəbiyyat

1. Musayev A. Qarabağın iqtisadiyyatı yenidən qurulacaq. http://science.gov.az/az/news/open/16136
2. Quliyev T.Ə., Məmmədov Ə.İ. Əməyin iqtisadiyyatı və sosialogiyası. Dərs vəsaiti. Bakı, 2007.
3. Muradov Ş.M. İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər, AMEA, İqtisadiyyat İnstitutu, Bakı, 2004.
4. Raqifoğlu A. Qarabağda biznes qurmaq istəyənlərin sayı 400-ü keçib. Elektron resurs: https://report.az/biznes-xeberleri/iqtisadi-meseleler-uzre-isci-qrupun-iclasi-kecirilib/
5. Vüsal Qasımlı: Qarabağın böyük iqtisadi potensialı var. https://iqtisadiislahat.org/news/vusal_qasimli_qarabagin_boyuk_iqtisadi_potensiali_var-1050
6. Yeni iş yerləri. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Rəsmi nəşr, Statistik məcmuə, Bakı – yanvar 2022, səh.5, https://www.stat.gov.az/source/labour/
7. Dawkins C.J. (2003) Regional Development Theory: Conceptual Foundations, Classic Works, and Recent Developments Article in Journal of Planning Literature, November 2003, DOI: 10.1177/0885412203254706
8. ILO. Decent Work Country Diagnostics - Technical Guidelines to draft the Diagnostics Report. *Geneva: ILO, 2015,* https://www.ilo.org/moscow/dw4sd/themes/employment-rich/lang--ru/index.htm
9. https://dma.gov.az/layiheler/hesabat